Coğrafiya elmləri / Geographical Sciences

AZƏRBAYCANDA ŞƏHƏRLƏRİN İNKİŞAFINDA YÜNGÜL SƏNAYENİN ROLU

Nigar Paşayeva[1]*
[1]*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Coğrafiya İnstitutu*
**Məsul müəllif: nigar.pasayeva@geo.edu.az*

Açar sözlər: *yüngül sənaye, şəhər inkişafı, məşğulluq, toxuculuq sənayesi, geyim istehsalı, regional inkişaf, Azərbaycan*

Xülasə. Məqalədə Azərbaycanda yüngül sənayenin şəhərlərin iqtisadi inkişafında və əhalinin məşğulluğunda rolu araşdırılır. Tədqiqatın məqsədi toxuculuq, geyim, dəri və ayaqqabı istehsalında məşğulluğun dəyişməsini təhlil etmək və bu sahələrin şəhər iqtisadiyyatının şaxələndirilməsi baxımından imkanlarını qiymətləndirməkdir. Araşdırmada Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin demoqrafiya və sənaye üzrə məlumatlarından, elmi ədəbiyyatdan və ayrı-ayrı müəssisələr haqqında dərc olunmuş materiallardan istifadə edilmişdir. Müqayisəli təhlil və statistik məlumatların ümumiləşdirilməsi əsasında şəhər və kənd əhalisinin təbii hərəkəti, həmçinin 2020–2024-cü illərdə yüngül sənayenin əsas sahələrində çalışanların sayı nəzərdən keçirilmişdir. Təqdim olunan məlumatlar məşğulluğun sahələr üzrə fərqli istiqamətlərdə dəyişdiyini göstərir: geyim istehsalında çalışanların sayı artdığı halda, toxuculuq, dəri və ayaqqabı istehsalında dövrün əvvəli ilə müqayisədə azalma müşahidə olunur. Qadınların məşğulluğu baxımından geyim istehsalının əhəmiyyəti ayrıca nəzərdən keçirilir. Şəhərlərdə yüngül sənayenin inkişafı xammal təminatı, nəqliyyat və bazar əlaqələri, istehsalın modernləşdirilməsi və peşə bacarıqlarının artırılması ilə əlaqələndirilir. Regional şəhərlərdə rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi, yerli təchizat əlaqələrinin gücləndirilməsi və əmək məhsuldarlığının yüksəldilməsi tövsiyə olunur. Ölkə üzrə statistik göstəricilər əsasında müəyyənləşdirilən meyillər şəhər inkişafına mümkün töhfələr baxımından şərh edilir; ayrı-ayrı şəhərlərdə təsirin dəqiqləşdirilməsi əlavə məlumatlar tələb edir.

© 2026 Müəllif(lər). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutu tərəfindən nəşr edilmişdir. Bu məqalə Creative Commons Attribution 4.0 Beynəlxalq Lisenziyası (CC BY 4.0) əsasında yayımlanır.

1. Giriş

Şəhərlərin inkişafı istehsal sahələrinin yerləşməsi, əmək bazarının formalaşması, infrastruktur təminatı və ətraf ərazilərlə iqtisadi əlaqələrin genişlənməsi ilə bağlıdır. Şəhərlər istehsal, xidmət, nəqliyyat və idarəetmə funksiyalarının cəmləşdiyi məkanlar kimi regional məskunlaşma sisteminin mühüm hissəsini təşkil edir. Onların inkişafının öyrənilməsi iqtisadi fəaliyyətlə demoqrafik proseslərin qarşılıqlı əlaqədə nəzərdən keçirilməsini tələb edir (Əyyubov, 1999; Əfəndiyev, 2002).

Şəhər iqtisadiyyatının şaxələndirilməsində yüngül sənayenin özünəməxsus yeri vardır. Toxuculuq, geyim, dəri və ayaqqabı istehsalı istehlak bazarı, kənd təsərrüfatı xammalı, əmək ehtiyatları və nəqliyyat əlaqələri ilə bağlı fəaliyyət göstərir. Bu sahələrin inkişafı istehsal müəssisələri ilə yanaşı, təchizat, logistika, ticarət və digər xidmətlər üçün də iqtisadi imkanlar yarada bilər. Yüngül sənayenin ərazi təşkilinin qiymətləndirilməsində xammal mənbələrinin, istehlakçıların və əmək ehtiyatlarının yerləşməsi birlikdə nəzərə alınmalıdır (Əyyubov, 2017).

Azərbaycanda yüngül sənaye müəssisələrinin formalaşması və inkişafı müxtəlif tarixi mərhələlərdən keçmişdir. Müəssisələrin texniki bazası, istehsal əlaqələri və bazar şəraitində baş verən dəyişikliklər bu sahələrin fəaliyyətinə təsir göstərmişdir. Buna görə də mövcud istehsal ənənələrinin qorunması ilə yanaşı, texnoloji yenilənmə və rəqabətqabiliyyətli məhsul istehsalı məsələlərinin araşdırılması əhəmiyyətlidir (Мамедова, 2015). Yüngül sənayenin inkişaf perspektivlərinin qiymətləndirilməsində peşə bacarıqları, istehsalın təşkili və innovasiyalardan istifadə imkanları da nəzərə alınmalıdır (Сидоренко, 2023).

Yüngül sənayenin şəhər inkişafı ilə əlaqəsini araşdırarkən məşğulluğun sahələr üzrə dəyişməsi xüsusi əhəmiyyət daşıyır. Çalışanların sayındakı artım və ya azalma bütün yüngül sənaye sahələrində eyni istiqamətdə baş verməyə bilər. Toxuculuq, geyim, dəri və ayaqqabı istehsalının ayrıca təhlili bu fərqləri müəyyənləşdirməyə imkan verir. Qadınların məşğulluğunun nəzərdən keçirilməsi isə sahənin əmək bazarındakı rolunu daha ətraflı səciyyələndirir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin

sənaye və demoqrafiya üzrə nəşrləri belə müqayisələr üçün rəsmi məlumat bazası yaradır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025a, 2025b).

Mövzunun aktuallığı regional şəhərlərin iqtisadi bazasının genişləndirilməsi, məşğulluq imkanlarının artırılması və mövcud istehsal potensialından səmərəli istifadə ehtiyacından irəli gəlir. Bununla belə, ölkə üzrə sənaye göstəricilərinin dəyişməsi ayrı-ayrı şəhərlərin inkişafına təsiri birbaşa müəyyənləşdirmir. Həmin əlaqənin qiymətləndirilməsi müəssisələrin yerləşməsi, yerli əmək bazarı, təchizat əlaqələri və infrastruktur haqqında məlumatların birlikdə təhlilini tələb edir.

Tədqiqatın məqsədi Azərbaycanda yüngül sənayenin əsas sahələrində məşğulluğun dəyişməsini araşdırmaq və bu sahələrin şəhər iqtisadiyyatının inkişafına mümkün töhfələrini qiymətləndirməkdir. Bu məqsədlə 2020–2024-cü illərdə toxuculuq, geyim, dəri və ayaqqabı istehsalında çalışanların sayı müqayisə edilir, qadınların məşğulluğundakı dəyişikliklər nəzərdən keçirilir və ayrı-ayrı müəssisə nümunələri əsasında regional inkişaf imkanları müzakirə olunur.

2. Material və metod

Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin *Azərbaycanın demoqrafik göstəriciləri* və *Azərbaycanın sənayesi* adlı statistik məcmuələri, şəhər məskunlaşması və yüngül sənayenin ərazi təşkilinə dair elmi ədəbiyyat, həmçinin ayrı-ayrı müəssisələr haqqında dərc olunmuş məlumatlar təşkil edir. Demoqrafik göstəricilər seçilmiş illər üzrə 2000–2024-cü illəri, yüngül sənayedə məşğulluq məlumatları isə 2020–2024-cü illəri əhatə edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025a, 2025b).

Araşdırmada müqayisəli təhlil, dinamika sıralarının təhlili və elmi ədəbiyyatın ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir. Şəhər və kənd əhalisinin təbii hərəkəti doğulanların, ölənlərin və təbii artımın mütləq göstəriciləri, eləcə də əhalinin hər 1000 nəfərinə düşən ümumi əmsallar əsasında müqayisə olunmuşdur. Bu göstəricilər məskunlaşmanın demoqrafik fonunu səciyyələndirmək üçün istifadə edilmiş, yüngül sənayenin inkişafının birbaşa nəticəsi kimi şərh olunmamışdır.

Yüngül sənayedə məşğulluğun təhlili üç fəaliyyət istiqaməti üzrə aparılmışdır: toxuculuq sənayesi; geyim istehsalı; dəri və dəri məmulatları, ayaqqabı istehsalı. Hər bir istiqamət üzrə çalışanların ümumi sayı və qadınların sayı nəzərdən keçirilmişdir. Dövrün əvvəli ilə sonu arasındakı dəyişikliklər mütləq fərq və faiz dəyişməsi ilə qiymətləndirilmişdir. Faiz dəyişməsi aşağıdakı düsturla hesablanır:

$$D = \frac{N_{2024} - N_{2020}}{N_{2020}} \times 100$$

Burada D məşğulluğun faizlə dəyişməsini, N_{2020} və N_{2024} isə müvafiq illərdə çalışanların sayını ifadə edir. Qadınların məşğulluqdakı payı onların sayının müvafiq sahədə çalışanların ümumi sayına nisbəti əsasında müəyyənləşdirilir.

Müəssisə nümunələri yüngül sənayenin şəhərlərdə yerləşmə xüsusiyyətlərini və yerli iqtisadi əlaqələrini izah etmək üçün istifadə edilmişdir. Bu məlumatlar qiymətləndirilərkən nəşr tarixi nəzərə alınmalı, əvvəlki illərə aid işçi sayı və istehsal göstəriciləri cari vəziyyət kimi təqdim edilməməlidir (Мамедова, 2015; Малахова, 2025).

Tədqiqatın əsas məhdudiyyəti təqdim olunan məşğulluq göstəricilərinin ölkə səviyyəsində olmasıdır. Buna görə də onlar əsasında ayrı-ayrı şəhərlərdə yüngül sənayenin məşğulluğa, miqrasiyaya və gəlirlərə təsirini kəmiyyət baxımından müəyyənləşdirmək mümkün deyil. Nəticələr sahə üzrə meyillərin və şəhər inkişafı üçün mümkün iqtisadi əlaqələrin qiymətləndirilməsi ilə məhdudlaşır.

3. Təhlil və müzakirə

3.1. Şəhər məskunlaşmasının demoqrafik xüsusiyyətləri

Şəhərlərin inkişafı iqtisadi fəaliyyətin genişlənməsi ilə yanaşı, əhalinin təbii hərəkəti və miqrasiya prosesləri ilə əlaqəlidir. Şəhər əhalisinin sayının dəyişməsi əmək ehtiyatlarının formalaşmasına və istehlak bazarının həcminə təsir göstərir. Bununla belə, demoqrafik göstəricilər sənaye inkişafının birbaşa nəticəsi kimi qəbul edilməməli, şəhər iqtisadiyyatının fəaliyyət göstərdiyi sosial-demoqrafik şəraiti səciyyələndirən məlumatlar kimi nəzərdən keçirilməlidir.

Azərbaycanın şəhər və kənd əhalisi üzrə doğulanların, ölənlərin və təbii artımın seçilmiş illərdəki göstəriciləri Cədvəl 1-də təqdim olunur.

Cədvəl 1

Azərbaycanda şəhər və kənd əhalisinin təbii hərəkəti, seçilmiş illər üzrə, nəfər

	Doğulanların sayı	Ölənlərin sayı	Təbii artım

İllər	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi
2000	116994	49631	67363	46701	23530	23171	70293	26101	44192
2005	141901	64362	77539	51962	27347	24615	89939	37015	52924
2010	165643	81752	83891	53580	28369	25211	112063	53383	58680
2015	166210	81149	85061	54697	29628	25069	111513	51521	59992
2020	126571	61515	65056	75647	42049	33598	50924	19466	31458
2024	102310	49373	52937	58909	33139	25770	43401	16234	27167

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2025a).

Cədvəlin məlumatlarına görə, şəhər əhalisinin təbii artımı 2000-ci ildə 26 101 nəfərdən 2010-cu ildə 53 383 nəfərə yüksəlmiş, sonrakı seçilmiş illərdə isə azalmışdır. Bu göstərici 2020-ci ildə 19 466 nəfər, 2024-cü ildə isə 16 234 nəfər təşkil etmişdir. Kənd əhalisinin təbii artımı da təqdim olunan dövrün sonuna doğru azalmışdır. Beləliklə, təbii artımın zəifləməsi həm şəhər, həm də kənd əhalisi üçün müşahidə olunan meyildir.

Mütləq göstəricilər əhali sayından asılı olduğuna görə şəhər və kənd yerlərinin müqayisəsində ümumi demoqrafik əmsalların nəzərdən keçirilməsi də vacibdir. Əhalinin hər 1000 nəfərinə düşən doğum, ölüm və təbii artım göstəriciləri Cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Azərbaycanda şəhər və kənd əhalisi üzrə doğum, ölüm və təbii artımın ümumi əmsalları, ‰

İllər	Əhalinin hər 1000 nəfərinə								
	Doğulanların sayı			Ölənlərin sayı			Təbii artım		
	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi	Bütün əhali	Şəhər əhalisi	Kənd əhalisi
2000	14,7	12,2	17,3	5,9	5,8	6,0	8,8	6,4	11,3
2005	16,9	14,6	19,5	6,2	6,2	6,2	10,7	8,4	13,3
2010	18,5	17,2	20,0	6,0	6,0	6,0	12.5	11,2	14,0
2015	17,4	16,0	19,0	5,7	5,9	5,6	11,7	10,1	13,4
2020	12,7	11,2	14,4	7,6	7,7	7,4	5,1	3,5	7,0
2024	10,0	8,9	11,4	5,8	6,0	5,5	4,2	2,9	5,9

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2025a).

Şəhər əhalisinin təbii artım əmsalı 2010-cu ildə 11,2‰ olduğu halda, 2024-cü ildə 2,9‰ təşkil etmişdir. Kənd əhalisi üzrə müvafiq göstərici 14,0‰-dən 5,9‰-ə enmişdir. Seçilmiş illərin hamısında kənd əhalisinin təbii artım əmsalı şəhər əhalisinin göstəricisindən yüksək olmuşdur.

Bu məlumatlar şəhər əmək bazarının perspektiv qiymətləndirilməsində demoqrafik dəyişikliklərin nəzərə alınmasının vacibliyini göstərir. Lakin doğum və təbii artım göstəriciləri əmək ehtiyatlarının cari həcmini birbaşa ifadə etmir. Bunun üçün əhalinin yaş strukturu, əmək qabiliyyətli əhalinin sayı, iqtisadi fəallıq və miqrasiya göstəriciləri də təhlil olunmalıdır.

3.2. Yüngül sənayedə məşğulluğun sahələr üzrə dəyişməsi

Yüngül sənayenin məşğulluqdakı rolunu qiymətləndirmək üçün toxuculuq, geyim, dəri və ayaqqabı istehsalı üzrə göstəricilər ayrıca nəzərdən keçirilmişdir. Bu sahələrin xammal təminatı, istehsal texnologiyaları və bazar əlaqələri fərqləndiyindən, çalışanların sayının dəyişməsi də eyni istiqamətdə baş vermir. 2020–2024-cü illər üzrə məlumatlar Cədvəl 3-də təqdim olunur.

Cədvəl 3

Azərbaycanda yüngül sənayenin əsas sahələrində çalışanların sayı, 2020–2024-cü illər, nəfər

Sənaye sahələri	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Toxuculuq sənayesi	8 958	8 640	8 522	8 064	8 446
O cümlədən qadınlar	3 482	3 119	2 774	2 602	2 900
Geyim istehsalı	3 149	3 298	3 383	3 449	4 517
O cümlədən qadınlar	1 946	2 022	2 368	2 465	3 264

Sənaye sahələri	2020	2021	2022	2023	2024
Dəri və dəri məmulatları, ayaqqabı istehsalı	792	879	851	631	663
O cümlədən qadınlar	316	384	380	278	270

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2025b).

Toxuculuq sənayesində çalışanların sayı 2020-ci ildəki 8 958 nəfərdən 2024-cü ildə 8 446 nəfərə enmişdir. Dövr ərzində azalma 512 nəfər və ya təxminən 5,7% təşkil etmişdir. Bununla belə, 2024-cü ildə əvvəlki illə müqayisədə artım qeydə alınmışdır. Bu səbəbdən bütün dövrü fasiləsiz azalma kimi səciyyələndirmək düzgün olmaz.

Geyim istehsalında isə çalışanların sayı təqdim olunan illər üzrə ardıcıl artmışdır. Göstərici 2020-ci ildə 3 149 nəfərdən 2024-cü ildə 4 517 nəfərə yüksəlmişdir. Artım 1 368 nəfər və ya təxminən 43,4% təşkil etmişdir. Mütləq say baxımından ən böyük illik artım 2023–2024-cü illər arasında müşahidə olunur.

Dəri və dəri məmulatları, ayaqqabı istehsalında çalışanların sayı 2020-ci ildə 792 nəfər olduğu halda, 2024-cü ildə 663 nəfər təşkil etmişdir. Dövrün əvvəli ilə müqayisədə azalma 129 nəfər və ya təxminən 16,3% olmuşdur. Bu sahədə də dəyişikliklər qeyri-bərabərdir: 2021-ci ildə artım, sonrakı iki ildə azalma, 2024-cü ildə isə qismən bərpa müşahidə edilir.

Üç sahə üzrə çalışanların ümumi sayı 2020-ci ildə 12 899 nəfərdən 2024-cü ildə 13 626 nəfərə yüksəlmişdir. Beləliklə, ümumi artım 727 nəfər və ya təxminən 5,6% təşkil etmişdir. Bu nəticə əsasən geyim istehsalındakı artımla əlaqədardır. Lakin işçi sayının dəyişməsi əsasında istehsal həcmi və əmək məhsuldarlığı haqqında ayrıca nəticə çıxarmaq mümkün deyil.

3.3. Qadınların məşğulluğunda yüngül sənayenin rolu

Qadınların məşğulluğu üzrə göstəricilər də sahələr arasında fərqlənir. Toxuculuq sənayesində çalışan qadınların sayı 2020–2024-cü illərdə 3 482 nəfərdən 2 900 nəfərə, dəri və ayaqqabı istehsalında isə 316 nəfərdən 270 nəfərə enmişdir. Geyim istehsalında çalışan qadınların sayı həmin dövrdə 1 946 nəfərdən 3 264 nəfərə yüksəlmişdir.

Geyim istehsalında qadınların çalışanların ümumi sayındakı payı 2020-ci ildə təxminən 61,8%, 2024-cü ildə isə 72,3% olmuşdur. Bu göstəricilər geyim istehsalının qadınların məşğulluğu baxımından əhəmiyyətini göstərir. Bununla belə, bütün yüngül sənaye sahələrində qadınların üstünlük təşkil etdiyini söyləmək olmaz. Məsələn, toxuculuq sənayesində onların payı 2024-cü ildə təxminən 34,3% təşkil etmişdir.

Üç sahə üzrə çalışan qadınların ümumi sayı 2020-ci ildə 5 744 nəfərdən 2024-cü ildə 6 434 nəfərə yüksəlmişdir. Bu artımın şəhər və regionlar üzrə bölgüsünü müəyyənləşdirmək üçün daha ətraflı ərazi məlumatları tələb olunur. Qadınların məşğulluq imkanlarının qiymətləndirilməsində işçi sayı ilə yanaşı, əməkhaqqı, iş şəraiti, peşə hazırlığı və vəzifə üzrə irəliləmə imkanları da nəzərə alınmalıdır.

3.4. Yüngül sənayenin şəhər iqtisadiyyatı ilə əlaqələri

Yüngül sənaye müəssisələri şəhər iqtisadiyyatı ilə bir neçə istiqamətdə əlaqələnir. Birbaşa əlaqə müəssisədə yaradılan iş yerləri və istehsal fəaliyyəti ilə bağlıdır. Dolayı əlaqələr isə xammal təchizatı, nəqliyyat, anbar təsərrüfatı, avadanlıqlara texniki xidmət, ticarət və digər fəaliyyətlər vasitəsilə formalaşa bilər. Bu əlaqələrin miqyası müəssisənin ölçüsündən, yerli təchizatçılardan istifadə səviyyəsindən və satış bazarlarından asılıdır (Əyyubov, 2017).

Azərbaycanda tekstil və yüngül sənaye müəssisələrinin tarixi inkişafına dair materiallar istehsalın şəhərlərin təsərrüfat funksiyaları ilə əlaqəli olduğunu göstərir (Мамедова, 2015). Lakin əvvəlki illərə aid müəssisə və işçi sayı məlumatları cari vəziyyət kimi təqdim edilməməlidir. Müəssisələrin müasir rolunun qiymətləndirilməsi onların fəaliyyət vəziyyəti, istehsal həcmi və məşğulluğu haqqında tarixləndirilmiş məlumatlara əsaslanmalıdır.

Yüngül sənayenin regional şəhərlərdə inkişafı yerli iqtisadi bazanın genişləndirilməsi baxımından imkan yarada bilər. Bunun üçün müəssisənin yaradılması ilə yanaşı, xammal təminatı, ixtisaslı işçi qüvvəsi, enerji və su təchizatı, logistika və bazara çıxış məsələləri həll olunmalıdır. Yeni iş yerlərinin miqrasiyaya təsiri isə əməkhaqqı, işin davamlılığı və şəhərdə sosial xidmətlərin səviyyəsi ilə birlikdə qiymətləndirilməlidir.

3.5. Modernləşdirmə və regional inkişaf imkanları

Yüngül sənayenin inkişafında texnoloji yenilənmə, məhsul keyfiyyəti, dizayn və peşə bacarıqları bir-birini tamamlayan istiqamətlərdir. Avadanlığın yenilənməsi istehsalın səmərəliliyini yüksəldə bilər, lakin onun nəticəsi işçilərin hazırlığından, idarəetmədən və bazar tələbinin düzgün qiymətləndirilməsindən də asılıdır. Müvafiq kompetensiyaların və istehsal imkanlarının nəzərə alınması sahənin inkişaf

perspektivlərinin müəyyənləşdirilməsində əhəmiyyətlidir (Сидоренко, 2023).

Regional şəhərlərdə müəssisələrin peşə təhsili qurumları və yerli təchizatçılarla əməkdaşlığının genişləndirilməsi məqsədəuyğundur. Hazırlıq proqramları konkret istehsal ehtiyacları ilə əlaqələndirilməli, texniki bacarıqlarla yanaşı, keyfiyyətə nəzarət və resurslardan qənaətli istifadə məsələlərini də əhatə etməlidir.

Modernləşdirmə prosesində ekoloji göstəricilər də nəzərə alınmalıdır. Su və enerji sərfi, tullantıların idarə olunması və texnoloji proseslərin təhlükəsizliyi müəssisələrin şəhər mühiti ilə uyğun fəaliyyətinin mühüm şərtləridir. Sahənin inkişafı yalnız çalışanların sayının artırılması ilə deyil, məhsuldarlıq, əmək şəraiti, istehsal keyfiyyəti və ekoloji nəticələr əsasında qiymətləndirilməlidir.

4. Nəticə

Azərbaycanda yüngül sənayenin əsas sahələri üzrə 2020–2024-cü illərin məşğulluq göstəricilərinin müqayisəli təhlili aşağıdakı nəticələri formalaşdırır:

1. Toxuculuq, geyim, dəri və ayaqqabı istehsalında çalışanların ümumi sayı 12 899 nəfərdən 13 626 nəfərə yüksəlmiş, artım təxminən 5,6% təşkil etmişdir. Lakin sahələr üzrə dəyişikliklər fərqli olmuşdur: geyim istehsalında məşğulluq 43,4% artmış, toxuculuq sənayesində 5,7%, dəri və ayaqqabı istehsalında isə 16,3% azalmışdır. Buna görə də yüngül sənayenin inkişafı ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə qiymətləndirilməlidir.

2. Geyim istehsalı qadınların məşğulluğu baxımından xüsusilə seçilir. Bu sahədə çalışan qadınların sayı 1 946 nəfərdən 3 264 nəfərə, onların ümumi işçi sayındakı payı isə 61,8%-dən 72,3%-ə yüksəlmişdir. Qadınların məşğulluğunun dəstəklənməsi peşə hazırlığı, təhlükəsiz əmək şəraiti və peşə üzrə irəliləmə imkanları ilə əlaqələndirilməlidir.

3. Yüngül sənayenin şəhər iqtisadiyyatına mümkün töhfələri birbaşa məşğulluqla yanaşı, təchizat, nəqliyyat, texniki xidmət və ticarət əlaqələri vasitəsilə formalaşır. Regional şəhərlərdə bu əlaqələrin gücləndirilməsi üçün müəssisələrin yerli xammal bazası, əmək ehtiyatları və bazara çıxış imkanları ilə uyğunlaşdırılması vacibdir.

4. Sahənin inkişafında mövcud müəssisələrin modernləşdirilməsi, məhsul keyfiyyətinin yüksəldilməsi, dizayn və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi prioritet istiqamətlər kimi nəzərdən keçirilməlidir. Müəssisələrlə peşə təhsili qurumlarının əməkdaşlığı istehsal ehtiyaclarına uyğun kadr hazırlığını dəstəkləyə bilər.

5. İnkişafın qiymətləndirilməsi işçi sayının dəyişməsi ilə məhdudlaşmamalıdır. Əmək məhsuldarlığı, əməkhaqqı, iş yerlərinin davamlılığı, su və enerji sərfi, tullantıların idarə olunması kimi göstəricilər də nəzərə alınmalıdır.

Təqdim olunan məlumatlar ölkə səviyyəsində məşğulluq meyillərini göstərir. Yüngül sənayenin ayrı-ayrı şəhərlərin inkişafına, əhalinin gəlirlərinə və miqrasiya davranışına təsirini müəyyənləşdirmək üçün gələcək tədqiqatlarda şəhər və müəssisə səviyyəsində məlumatların, məşğulluq sorğularının və məkan təhlilinin tətbiqi məqsədəuyğundur.

ƏDƏBİYYAT

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025a). *Azərbaycanın demoqrafik göstəriciləri: Statistik məcmuə*. https://www.stat.gov.az/source/demoqraphy/

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025b). *Azərbaycanın sənayesi: Statistik məcmuə*. https://www.stat.gov.az/source/industry/

Əfəndiyev, V. Ə. (2002). *Azərbaycanda urbanizasiyanın iqtisadi-coğrafi problemləri* [Doktorluq dissertasiyası].

Əyyubov, N. H. (1999). Şəhər məskunlaşması. *Azərbaycan Respublikasının konstruktiv coğrafiyası* (Cild 2, s. 178–186). Elm.

Əyyubov, N. H. (2017). Ölkənin təsərrüfatında yüngül sənayenin yeri. R. M. Məmmədovun redaktəsi ilə, *Azərbaycanda yüngül sənayenin ərazi təşkili problemləri* (s. 19–28). Avropa.

Jafarov, S. (2024). Internationalisation and Cultural Aspects of Online Learning, Training, and Research. *Pakistan Journal of Life and Social Sciences, 22*(2): 6437-6452. https://doi.org/10.57239/PJLSS-2024-22.2.00486

Jafarov S., Isazada E. (2024). Cultural Differences in Tourist Behavior: A Cross-Cultural Psychological Study. *International Journal of Current Science Research and Review, 7(*11), 8647-8656. https://doi.org/10.47191/ijcsrr/V7-i11-53

Jafarov, S., & Aliyev, Y. (2024). Assessment Methods in Blended Learning Environments. *Journal of Management World, 2024(4)*, 505-515. https://doi.org/10.53935/jomw.v2024i4.443

Jafarov, S. (2025). Education and Skill Development: A Pathway to Sustainable Growth. *International Journal of Scientific Research and Management, 13*(2), 3963-3969. https://doi.org/10.18535/ijsrm/v13i02.el06 30.

Jafarov, S. (2025). Simulated communities and online mentoring. *International Journal of Current Science Research and Review, 08*(01). https://doi.org/10.47191/ijcsrr/V8-i1-38

Jafarov, S. (2025). Workplace learning and collaborative Learning: insights and applications in Azerbaijan's education system. *International Journal of Current Science Research and Review, 08*(01). https://doi.org/10.47191/ijcsrr/v8-i1-27 32.

Jafarov, S. (2025). Quality Processes at National and International Levels: A Comparative Analysis. *International Journal of Current Science Research and Review, 8*(7), pp. 3373-3379. https://doi.org/10.47191/ijcsrr/V8-i7-26

Jafarov, S. & Dadashov, T. (2025). Evolution of Educational Systems Research: Historical Milestones and Contemporary Approaches, *International Journal of Education and Social Science Research (IJESSR) 8*(2): 395-401. https://doi.org/10.37500/IJESSR.2025.8227

Малахова, Е. А. (2025). Развитие отечественной легкой промышленности демонстрирует положительную динамику. *Бакинский рабочий*, (44), 6.

Мамедова, Х. Ф. (2015). Исторические аспекты развития предприятий текстильной и легкой промышленности в Азербайджане. *Экономика и бизнес: Теория и практика*, (8), 69–73.

Сидоренко, Ю. А. (2023). Наличие компетенции и перспективы развития легкой промышленности на территории г. Санкт-Петербурга. *Управленческий учет*, (1), 388–396. https://doi.org/10.25806/uu-3087

THE ROLE OF LIGHT INDUSTRY IN URBAN DEVELOPMENT IN AZERBAIJAN

Nigar Pashayeva[1]*
[1]*Institute of Geography, Ministry of Science and Education of the Republic of Azerbaijan*
**Corresponding author: nigar.pasayeva@geo.edu.az*

Abstract. This article examines the role of light industry in urban economic development and employment in Azerbaijan. The study aims to analyse changes in employment in textile, clothing, leather, and footwear manufacturing and to assess the potential of these industries to diversify urban economies. The research draws on demographic and industrial data from the State Statistical Committee of the Republic of Azerbaijan, scholarly literature, and published materials on individual enterprises. Comparative analysis and the synthesis of statistical data are used to examine natural population change in urban and rural areas, alongside employment in the main branches of light industry between 2020 and 2024. The data indicate divergent employment trends across industries: employment in clothing manufacturing increased, whereas textile, leather, and footwear manufacturing recorded declines compared with the beginning of the period. Particular attention is paid to the importance of clothing manufacturing for women's employment. The development of light industry in cities is considered in relation to raw material supply, transport and market linkages, production modernisation, and skills development. The study recommends expanding competitive manufacturing in regional cities, strengthening local supply linkages, and increasing labour productivity. Trends identified from national statistics are interpreted in terms of their potential contributions to urban development; assessing their impact on individual cities requires additional data.

Keywords: *light industry, urban development, employment, textile industry, clothing manufacturing, regional development, Azerbaijan*

İstinad vermək üçün (APA 7):
Paşayeva, N. (2026). Azərbaycanda şəhərlərin inkişafında yüngül sənayenin rolu. *Coğrafiya və Təbii Resurslar, 12*(1), 97–102. https://doi.org/10.5281/zenodo.23482854